Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

# Novator sənətkar

**Bənzərsiz sənəti ilə doğma Azərbaycanımızı tanıdan insanlar gerçəkdən xoşbəxtdirlər. Bununla, onlar özləri də kifayət qədər tanınır və nüfuz sahibinə çevrilirlər. Adları mədəniyyət tariximizdə şərəfli yer tutan bu cür sənətçilər azmı olub? Müasirimiz, hazırda ömrünün ixtiyar çağını yaşayan, gerçəkdən məşğul olduğu sənətə doğma balası kimi qayğı göstərib, ondan doymayan bir SƏNƏT İNSANI da var ki, onun haqqında nə qədər danışılsa da yenə azdır, desəm səhv etmərəm.**

Hacı Seyfəddin Mənsimoğlu (Məmmədvəliyev) 1936-ci ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub. Orta təhsil aldığı Böyük Mərcanlı kənd məktəbinin ilk məzunlarından biridir. 1960-cı ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini, 1975-ci ildə isə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib. 1960-1963-cü illərdə doğulduğu kənddə rəsm və rəsmxət müəllimi işləyib. 1964-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda çalışır. Hazırda həmin institutun laboratoriya müdiridir. Ağac üzərində xətti oyma ustası kimi dünya miqyasında tanınan Seyfəddin müəllim oyma sənətində yeni bir janrın əsasını qoymuş novator sənətkardır. Onun «Rəhil» (2 əsər), "Soltan Məhəmməd" (2 əsər), "Aşıq Qurbani", «Məhəmməd Füzuli türbəsi», "Mövlanə Cəlaləddin Rumi" (3 əsər), "Nizami Gəncəvi" (2 əsər), «Hüseyn Cavid" (2 əsər), "Leyli və Məcnun", "Babur Şah", "Üzeyir Bəy Hacıbəyli", "Əlişir Nəvai", «Xəqani Şirvani», "Məhsəti Gəncəvi», "Məhəmməd Füzüli" (5 əsər), "Allah" (6 əsər), "Bismillahir-Rəhmanir-Rəhim" (6 əsər), "Məhəmməd Allahın Rəsuludur", "Qurani Kərimdən kəlamlar" (4 əsər), "İxlas surəsi", "Şah İsmayıl Xətai" (2 əsər), "Şəms Təbrizi", "Qardaşım! Vətən, ailə, qonşu yoxdursa, biz kimik?", "Elm nurdur, cəhalət isə qaranlıq", "Nəsimi" (2 əsər), "Nəsirəddin Tusi" kimi monumental əsərləri çağdaş Azərbaycan mədəniyyətinə ən böyük töhfədir.

Şərq xəttatlıq məktəbinin ənənələri əsasında yaranan, lakin yeni bir istiqamətdə təşəkkül tapan bu nadir mədəniyyət inciləri sözsüz ki, min illər boyu xalqımızın maddi-mədəniyyət abidələri kimi yaşayacaq və zaman-zaman tədqiqata cəlb olunacaqdır. Necə ki Ulu Şərq və Avropa mədəniyyətinin daşıyıcıları onun əsərlərinin möhtəşəmliyini və bənzərsizliyini etiraf etməkdən dolayı özgə münasibət bildirmək iqtidarında deyillər. Budur, Azərbaycan-Türk mədəniyyəti! Budur, Azərbaycan sənətkarındakı qüdrət!

Təsadüfi deyildir ki, yaratdığı əsərlər fəlsəfi mahiyyətinə, bədii xüsusiyyətlərinə, incəliyinə görə əcnəbi mütəxəssislərdə böyük heyrət doğurub. "Doğrudanmı, bunu insan təfəkkürü, insan barmaqları yaradıb?" - deyə heyranlıqlarını gizlədə bilmirlər. 48 yaşında ecazkar bir sənətin təməlini qoyan S.Mənsimoğlu 50-dən çox əsərin müəllifidir. Onun sənət əsərləri dəfələrlə ölkəmizdə və xaricdəki (Türkiyə, Fransa və s) sərgilərdə tamaşaçıların diqqətini özünə cəlb edib. Bu əsərlərin bir neçəsi həm Azərbaycan, həm də xarici ölkə vətəndaşları tərəfindən maraqlı sənət nümunəsi kimi fərdi kolleksiya üçün alınıb. "Soltan Məhəmməd" və "Rəhil" əsərləri Berlin şəhərinin "İslam mədəniyyəti" muzeyində saxlanılır. Qeyd etmək lazımdır ki, bu əsərlərin bir çoxu respublikamızın dövlət muzeylərində mühafizə olunur və nümayiş etdirilir. Onlardan "Aşıq Qurbani" Cəbrayıl rayon tarix-diyarşünaslıq muzeyində, "Şah İsmayıl Xətai" – biri AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat Muzeyində, digəri isə Ş.İ.Xətai adına Miniatür Mərkəzində emblem kimi nümayiş etdirilir. Müəllif "Hüseyn Cavid" əsərini H.Cavidin Ev Muzeyinə hədiyyə edib. O, bu əsərini oğlu, gənc xəttat Firudin bəylə birgə işləyib. "Rumi" adlı iki əsərindən biri N.Gəncəvi adına Ədəbiyyat Muzeyində saxlanır. Daha çox işi çalışdığı M.Füzuli adına Əlyazmalar İnstitutunda ("Soltan Məhəmməd" eyni adlı əsərlərindən biri, "Nizami Gəncəvi" adlı hər iki əsəri, "Məhəmməd Füzuli" adlı beş əsərindən dördü, "Üzeyirbəy Hacıbəyli", "Məhsəti Gəncəvi" və "Xaqani Şirvani" əsərləri) mühafizə olunur. Qalan işlərinin bir çoxu şəxsi kolleksiya üçün yerli və xarici vətəndaşlara satılıb. Onun əsərlərinə maraq ilk baxışdan hər kəsi cəlb edir. Təsadüfi deyildir ki, respublikamızın mədəniyyət tarixində özünəməxsus yeri olan xətti oyma ustasının əl işləri daim ölkəiçi və ölkəxarici KİV-in diqqət mərkəzindədir. Belə ki, indiyədək özü və sənəti haqqında 100-dən çox qəzetdə, 30-dan artıq jurnalda məqalə yazılmış, 20 dəfə televiziyada çıxışı təqdim olunmuş, yaradıcılığından bəhs edən bir film isə kinostudiyanın qızıl fonduna daxil edilmişdir. Bundan başqa, Türkiyə ("Samanyolu"), Rusiya ("MİR") və İran televiziya kanalları "Ağac üzərində oyma ustası» adı ilə verilişlər hazırlayaraq çoxmilyonlu tamaşaçılarını istedadlı Azərbaycan sənətkarının yaratdığı qeyri-ənənəvi sənət nümunələri ilə tanış edib. Azərbaycan Televiziyası onun möcüzəli sənət dünyasına həsr olunan «İki ömür» adlı sənədli film çəkib. Film bir neçə dəfə nümayiş etdirilib. 2000-ci ildə S.Məmmədvəliyevin 24 əsərinin fotoşəkilləri açıqca şəklində kütləvi nəşr olunub. 2011-ci ildə «Regionların inkişafı» İctimai Birliyinin layihəsi çərçivəsində "Metafora" ("Çoban bulağından başlanan yol") adlı kitab çap edilib. Kitabda S. Mənsimoğlunun həyat yolundan, yaradıcılığından, sənətdə qazandığı uğurlardan bəhs olunur. Dostları, tanınmış sənət adamları bu qeyri-adi peşə ustasının meydana gətirdiyi yeni sənətin incəliklərindən söz açır, onun bir insan kimi fərdi və şəxsi keyfiyyətlərindən danışırlar. Eyni zamanda, bu topluda xətti oyma ustasına həsr olunmuş şeirlər, onun özünün məqalələri və bədii yazıları da əksini tapıb.

Qeyd etmək lazımdır ki, onun özünün sənət haqqında prinsipal mövqeyi və orijinal fikri vardır: «Hər bir sənətin əsasında zövq və duyğu dayanır, sadəcə onları hərəkətə gətirmək və istiqamətləndirmək lazımdır». Bu fikrin arxasınca gedən və sözünə hakim olan Seyfəddin müəllim həm də duyğularını sözə çevirməyi bacarır. Müşahidələri və qənaətləri əsasında ortaya qoyduğu yığcam hekayələri, bədii-fəlsəfi esseləri yaşına və təcrübəsinə müvafiq ibrətamiz fikir yükü ilə doludur. Onlardan "Görüm", "At oğruları", "Xeyirxah insan", "Həsən müəllim", "Niftalının qazandığı nifrət", "Köhnə qonşuların təzə söhbəti", "Səfiyar kişinin etdikləri və gördükləri", "Əcəli gələndə", "Ləyaqət", "Əcəli çatmayan qarışqa" və s. qeyd edə bilərik. Onu da əlavə edək ki, bu vaxtacan Seyfəddin müəllimin onlarca hekayəsi dövri nəşrlərdə dərc edilmiş və maraqla qarşılanmışdır. 2014-cü ildə "Yeni Poliqraf" MMC tərəfindən oymaçı-xəttatın hekayələri və bədii oyma işləri "Deyimlərim... Duyumlarım... Düyünlərim..." adı altında nəfis tərtibatla kitab şəklində (tərtibçisi, redaktoru və ön sözün müəllifi, filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmlidir) çap edilmişdir.







Seyfəddin müəllim eyni zamanda, peşəkar foto ustasıdır. Onun lentə aldığı fotoşəkillər orijinal və canlıdır. Çalışdığı institutda bu sənət onun peşə taleyidir. S.Mənsimoğlu ona şöhrət qazandıran "Ağac üzərində oyma» sənətinə görə məhz bu instituta borclu olduğunu xüsusi olaraq qeyd edir. Onu da demək gərəkdir ki, sənəti qədər xarakterində də milli xüsusiyyətləri, insani keyfiyyətləri yaşadan Seyfəddin müəllim əməlisaleh, halal bir türk kişisidir. İslami dəyərlərə hörmət və ehtiramla yanaşan Hacı Seyfəddin Mənsimoğlu Məmmədvəliyev 2009-cu ildə Həcc ziyarətində də olub. Və bunun qəribə tarixçəsi var. Seyfəddin müəllimin əsərləri ona təkcə şöhrət gətirməyib, həm də uzun illərdən bəri niyyət etdiyi həcc ziyarətində olmaq kimi müqəddəs bir arzuya qovuşdurub. Yaxşı insanlar onun əl işlərini, beyninin və ürəyinin vəhdətindən doğan mükəmməl əsərlərini yüksək dəyərləndirərək nəciblik və xeyirxahlıq nümunəsi kimi ona Həccə getmək təklifini veriblər. "Regionların inkişafı" İctimai Birliyinin bu təşəbbüsü ürəyincə olub S.Mənsimoğlunun. Beləliklə, o, təşkilatın qayğı və himayəsi sayəsində istəyini gerçəkləşdirib.

Ailəlikcə incəsənətə bağlanan Seyfəddin müəllimin övladları da peşəkar sənətçidirlər: Görkəmli miniatürçü, gənc rəssam Fəxrəddin Məmmədvəliyevin əsərləri yalnız respublikamızda deyil, Avropa və Şərq ölkələrində də yüksək qiymətləndirilir. Yeri gəlmişkən, tanınmış sənətşünaslıq doktoru Ziyadxan Əliyev gənc həmkarı, istedadlı fırça ustası, miniatürçü rəssam Fəxrəddin Seyfəddin oğlu Məmmədvəliyevdən bəhs edən "Çağdaş rəssamlığımızın fenomeni" adlı monoqrafik bir toplu ("Yeni Poliqrafiya", 2012) nəşr etdirib. Kitaba istedadlı fırça ustasının milli kimliyimizi bəlli edən, tarixi-etnoqrafik miniatürlər, haqqında görkəmli sənət adamlarının, mütəxəssislərin xatirələri, uşaqlıq və gənclik illərində qələmə aldığı eskiz nümunələri və s. daxil edilib. S.Mənsimoğlunun ikinci övladı Firudin Məmmədvəliyev də bacarıqlı xəttat kimi tanınır. Səbuhi isə mahir fotoqrafdır. Ataları kimi onlar da öz dəsti-xətti və yaradıcılıq üslubu ilə seçilirlər.



**Yusif Dirili,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***